# 9 Noyabr Dövlət Bayrağı,
# 12 Noyabr Konstitusiya Günüdür


# TOVUZ

VƏTƏN, XEYİRXAHLIQ, ƏDALƏT UĞRUNDA!

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1929-cu ildən çıxır * № 17-18 (7524-7525) * 19 noyabr 2018-ci il * İctimai-siyasi qəzet * Qiyməti 50 qəpik


# Bayrağımız varlığımızdır





***Rayonda Dövlət Bayrağı Günü bayramı münasibətilə keçirilən silsilə tədbirlər Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri qoyulması ilə başladı və Heydər Əliyev Mərkəzində keçirilən elmi-praktik konfransla davam etdi.***

Konfransı giriş sözü ilə açan Tovuz Rayon İcra Hakimiyyətinin başçısı cənab Məmməd Məmmədov üçrəngli bayrağımızın təkcə müstəqillik rəmzi deyil, həm də Azərbaycan xalqının mübarizlik rəmzi olduğundan danışaraq qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 17 noyabr 2009-cu il tarixli sərəncamına əsasən, hər il noyabr ayının 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir. Azərbaycan Respublikasının dövlət atributlarından, dövlətçilik rəmzlərindən biri onun Dövlət bayrağıdır. Müqəddəs Bayrağımız 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qaldırılıb. Üçrəngli Milli Bayrağımız ikinci dəfə 70 il fasilədən sonra 1990-cı il noyabrın 17-də Naxçıvanda Ulu Öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmişdir. Bu gün Azərbaycan Respublikası üçrəngli dövlət bayrağımız altında müstəqillik yolları ilə inamla irəliləyir. Azərbaycan bayrağı bütün dünya azərbaycanlılarının milli birliyinin ifadəsidir və hamımızın qürur mənbəyimizdir.

Cənab M.Məmmədov rayon ictimaiyyətini qarşıdan gələn Dövlət Bayrağı Günü münasibətilə təbrik edərək hər kəsi bayrağımızın müqəddəsliyini qorumağa səslədi. Sonra elmi-praktik konfransda məruzələr dinlənildi.

Rayon İcra Hakimiyyəti başçısının müavini Təranə Bayramova "Prezident İlham Əliyev və Dövlət Bayrağı altında inkişaf edən müstəqil dövlətimiz", rayon prokurorunun müavini Anar Səfərov "Dövlət bayrağımız müstəqil Azərbaycanın əsas rəmzidir", tarixçi müəllim Malik Abbasov "Bayrağımız qürur mənbəyimizdir" mövzularında çıxış etdilər.

Tədbiri Tovuz Rayon İcra Hakimiyyətinin başçısı cənab Məmməd Məmmədov yekunlaşdırdı.

Elmi-praktik konfransda Prezident Administarasiyasının məsul işçisi cənab Orxan Mürsəlov iştirak etmişdir.

***"Tovuz"***

***Tovuz Rayon Icra Hakimiyyətinin başçısı Məmməd Məmmədov tovuzluları 9 Noyabr Bayraq və 12 Noyabr Konstitusiya Günü münasibətilə ürəkdən təbrik edir, hamıya xoşbəxtlik və firavanlıq arzulayır.***

## 12 noyabr – Konstitusiya günüdür

# “Dəyirmi masa” keçirilmişdir



*Tovuz rayon İcra Hakimiyyəti başçısı aparatının konfrans zalında 12 noyabr - Konstitusiya günü münasibəti ilə “dəyirmi masa” keçirilmişdir. Tədbirdə İH başçısı aparatının məsul işçiləri, hüquq mühafizə orqanları, idarə və təşkilat rəhbərləri, təhsil, səhiyyə və mədəniyyət işçiləri iştirak etmişlər.*

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı cənab Məmməd Məmmədov iştirakçıları əlamətdar gün münasibətilə təbrik etmişdir. Bildirmişdir ki, bu gün Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 23 il ötür. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və 1995-ci ildə qəbul olunmuş Konstitusiya müstəqil Azərbaycanın ilk Konstitusiyasıdır.

Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan Əsas Qanundur.

Müəllifinin böyük Heydər Əliyev olduğu Konstitusiyamızın maddələrinin üçdə birindən çoxunda insan hüquq və azadlıqlarına geniş yer verilmişdir. Bu, ölkəmizin demokratiya ideallarına sadiqliyinin göstəricisidir.

Bu gün cənab Prezident İlham Əliyevin qətiyyəti və siyasi iradəsi nəticəsində Azərbaycanda bütün fundamental azadlıqlar təmin edilibdir. Bu Konstitusiya günündə hər bir vətəndaşımız qürur duyur ki, Dünya Bankının hesabatında Azərbaycan 10 islahatçı dövlət siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunmuşdur. 190 ölkə arasında 25-ci yerdə qərarlaşan ölkəmiz inkişafın ən parlaq göstəricisinə nail olub. Bu uğurların bazasında böyük Heydər Əliyevin həyat verdiyi Konstitusiyamız dayanır.

Dəyirmi masada Konstitusiya günü münasibətilə məruzələr dinlənilmişdir. “Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin əsas qanunudur” mövzusunda rayon icra hakimiyyətinin hüquq şöbəsinin müdiri Svetlana Verdiyeva, “Azərbaycan Respublikasının Konstitusiyası insan hüquq və azadlıqlarının təminatçısıdır” mövzusunda rayon polis şöbəsinin rəisi Şirzad Əsgərov, “Konstitusiyamız və gender bərabərliyi” mövzusunda rayon qeydiyyat şöbəsinin rəisi Kifayət İsmayılova, “Azərbaycan Respublikasının Konstitusiyası ictimai-siyasi sabitliyimizin qarantıdır” mövzusunda rayon təhsil şöbəsinin metodisti Mehman Əhmədov çıxış etmişdir.

Tədbiri rayon icra hakimiyyətinin başçısı cənab Məmməd Məmmədov yekunlaşdırmışdır.

***“Tovuz”***

# KONSTİTUSİYAMIZ DÖVLƏTİMİZİN ƏSAS QANUNUDUR

***Əsrlər boyu böyük mərhələlərdən keçib tarixi müstəqilliyinə qovuşan xalq qarşısında ötən əsrin 90-cı illərində dövlət təsisatların yaradılması ,hüquqi və demokratik dövlət quruculuğu bütün zərurəti ilə gündəlikdə durdu. Bunu isə xalqın iradəsini ifadə edən Konstitusiya olmadan etmək mümkün deyildi. Demokratik cəmiyyət quruculuğu xətti tutan ölkəmizin ilk növbədə mükəmməl qanunlar toplusuna ehtiyacı var idi .Köhnə sovet qanunları artıq müasir dəyərlərə cavab vermirdi. Məhz bu amili nəzərə alan ümummilli lider Heydər Əliyevin müəllifliyi ilə noyabrın 12-də ümumxalq səsverməsi ilə müstəqil Azərbaycanın ilk konstitusiyası qəbul edildi . 1996-cı il fevralın 6-da Prezident Heydər Əliyev sərəncamı ilə noyabrın 12-i Konstitusiya günü elan edildi və bu gün Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 23 il ötür.***

Dövlət müstəqilliyinin bərpa olunduğu ilk illərdə ölkədə bütün sahələrdə yaşanan xaosdan, Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etmək üçün xalqın hakimiyyətə dəvət etdiyi ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliklə, cəsarətlə həyata keçirdiyi əsaslı islahatlar respublikamızı inkişaf yoluna çıxarmaqla yanaşı, qanunların aliliyini təmin edən, hüquqi, dünyəvi dövlət quruculuğuna yol açan yeni milli Konstitusiyanın hazırlanmasına və qəbuluna şərait yaratdı.

Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir. Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi sənəd idi.

Keçmiş sovet konstitusiyalarından fərqli olaraq, müstəqil Azərbaycanın Konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan etdi. Hakimiyyət bölgüsünün əsas prinsiplərini müəyyənləşdirdi. İnsan və vətəndaş hüquqlarının, azadlıqlarının müdafiəsini qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları üzərinə ümdə vəzifə olaraq qoydu. Təsadüfi deyil ki, şəxsiyyətin toxunulmazlığı, insan həyat və sağlamlığının qorunması, layiqli həyat səviyyəsinin təmin olunması, humanizm və insanpərvərlik prinsipləri Azərbaycan Konstitusiyasının başlıca mahiyyətini təşkil edir. 5 bölmə, 12 fəsil, 158 maddədən ibarət Konstitusiyanın 57 maddəsində insan hüquq və azadlıqlarına geniş yer verilməsi ölkəmizin demokratiya ideallarına sadiqliyinin göstəricisidir.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaratdı və onun inkişafına güclü təkan verdi. Bu Heydər Əliyev konstitusiyası idi ki , onun əsas prinsipləri azad və müstəqil Azərbaycanın uzunmüddətli gələcəyinə hesablanmışdı.

Bu Ali sənəd ölkədə həyata keçirilən hüquqi - demokratik islahatlar üçün möhkəm bir təməl idi .Müstəqil Azərbaycan Respublikasının əldə etdiyi bugünkü uğurlarının hüquqi başlanğıcında da məhz ,ümummilli Lider Heydər Əliyevin həyat verdiyi Azərbaycanın ilk konstitusiyası dayanır . İlk Ali qanunu qəbul etməklə Azərbaycan xalqı bütün cəmiyyətin və hər kəsin firavanlığını , azadlığını və təhlükəsizliyinin bərqərar edilməsini arzuladı , keçmiş,indiki və gələcək nəsillər qarşısında tarixi məsuliyyətini bəyan etdi. İlk Konstitusiyamız , eyni zamanda xalqımızın dünyəvi , milli - mənəvi prinsipləri rəhbər tutaraq seçdiyi gələcək yolun ifadəsi idi.

Konstitusiyalı quruluşun əsaslarını möhkəmləndirərək, Azərbaycan Respublikası Konstitusiyası Azərbaycanı - respublika idarəetmə formasına malik, unitar, demokratik, hüquqi, dünyəvi dövlət kimi müəyyən edir.

Konstitusiya - dövlətin ali qanunudur, ali hüquqi qüvvəyə malikdir və həmin dövlətin siyasi, hüquqi və iqtisadi sistemlərin əsaslarını təsbit edir, vətəndaşlarının hüquq və azadlıqlarını elan edir və zəmanət verir.

Konstitusiya dövlətin bir fenomen kimi mahiyyətini açıqlayan, qanunvericilik, icra və məhkəmə orqanlarının funksiyalarını əks etdirən, cəmiyyət, şəxsiyyət və dövlət arasındakı qarşılıqlı münasibətləri müəyyən edən ən yüksək hüquqi qüvvəyə malik olan hüquqi sənəddir.

Azərbaycan Respublikasının Konstitusiyası ali hüquqi qüvvəyə, birbaşa təsirə malikdir və Azərbaycan Respublikasının bütün ərazisində tətbiq olunur. Azərbaycan Respublikasında qəbul olunan qanunlar və qanun qüvvəli aktlar Azərbaycan Respublikası Konstitusiyasına zidd olmamalıdır.

Ötən 23 ildə ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar Azərbaycan Konstitusiyasına bir neçə dəfə əhəmiyyətli dəyişikliklər və əlavələr edilib. 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsində 29, 2009-cu il martın 18-də isə 25 maddəyə 30-dan artıq əlavə və dəyişiklik olunub. Bu dəyişikliklər Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının daha da güclənməsindən, vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminat verilməsindən, sosial dövlət prinsiplərini təsbit etmək imkanlarının daha da genişlənməsindən irəli gəlirdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafı tam, sistemli xarakter daşıyaraq əsl mənada intibah kimi müasir həyatımıza və tariximizə daxil olub.Bu gün Azərbaycan dünya miqyasında o ölkədir ki, xalq-iqtidar birliyi onun uğurlu inkişafını təmin edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən uğurlu sosial-iqtisadi siyasət dövlətimizin qüdrətinin artmasını təmin edib, əhalinin maddi rifah halı daha da yaxşılaşır.

Prezident İlham Əliyev həmişə bəyan edib ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşları, onların maraqları dayanır. Biz cənab Prezidentin fəaliyyətində bunun əyani nümunəsini görürük. Azərbaycanın bugünkü inkişafını təmin edən və gələcək tərəqqi üçün etibarlı zəmin yaradan çoxşaxəli islahatların həyata keçirilməsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyaya üçüncü dəfə əlavələr və dəyişikliklər edilib. Konstitusiyanın 29 maddəsinə edilən 41 əlavə və dəyişiklik müxtəlif sahələri əhatə etməklə, ali dövlət hakimiyyəti, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquqları və azadlıqlarının daha səmərəli təmin edilməsinə, hüquq və azadlıqların müdafiəsində dövlət və bələdiyyələrin məsuliyyətinin artırılmasına yönəlib.

Beləliklə, Azərbaycan Respublikasının Konstitusiyasına edilən əlavə və dəyişikliklər nəticəsində Əsas Qanunumuz daha da təkmilləşdirilərək yeni dövrün tələblərinə uyğunlaşdırılıb.

Heydər Əliyevin siyasət məktəbinin layiqli yetirməsi olan cənab Prezidentimiz İlham Əliyevin qətiyyəti və siyasi iradəsi nəticəsində Azərbaycanda təkcə sosial-iqtisadi sistemdə deyil, həm də siyasi və ictimai təsisatlarda əsaslı yeniliklər olmuş, səmərəli intensiv islahatlar aparılmışdır.

Dərin və global böhrandan çıxaraq cəmi 20 il ərzində kosmik dövlətlər sırasına daxil olan, dünyanın ən mötəbər beynəlxalq forumlarına ev sahibliyi edən, kataklizmlərlə çalxalanan regionda multikulturalizmin qalasına çevrilən, sosial-iqtisadi və hərbi cəhətdən gündən-günə inkişaf edən müstəqil Azərbaycan bu gün hamımızın qürur mənbəyidir. Sadəcə son dövrlər baş verənlər bugünkü Azərbaycan reallığının ən bariz nümunəsidir. Belə ki, 2017-ci ilin 14 sentyabr tarixində “Əsrin müqaviləsi”nin 2050-ci ilədək uzadılması ölkəmizin etibarlı və stabil inkişaf edən dövlət kimi bütün dünyada hüfuzunun yüksəlməsi, əhalimizin rifahının təminatı baxımından böyük strateji əhəmiyyət daşıyır. Habelə,ötən ilin 30 oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılması Azərbaycanın Avrasiyanın geosiyasi nəqliyyat mərkəzinə çevrilməsi yolunda atılmış ən mühüm addımdır. Milyondan artıq sərnişin, 17 milyon tondan artıq yük daşınması nəzərdə tutulan bu xətt həm də təcavüzkar Ermənistanın strateji blokadasını möhkəmləndirən mühüm iqtisadi-siyasi qələbədir.

Bu gün dünyada milli və dini zəmində baş verən qarşıdurmalar, axan nahaq qanlar, insanların bu münaqişələr ucbatından öz yurd-yuvasından didərgin düşməsi hamını, eləcə də bəşəriyyətin bir parçası olan xalqımızı narahat etməyə bilməz. O səbəbdən zərurət var ki, sahib olduğumuz tolerantlıq təcrübəmizi və multikulturalizm dəyərini bütün xalqlara aşılayaq və bu yolla dünyada sülhün və əmin-amanlığın bərqərar olmasına öz töhfəmizi verək. Dünyanın ümumxalq mənafeyinə cavab verən ən nadir və kamil konstitusiyalarından olan Əsas Qanunumuz bunun tam təminatçısı və qarantıdır.

Çox qürur verici haldır ki, bu gün Aərbayan dövləti şəxsiyyət azadlığının və insan hüquqlarının qorunmasına,eləcədə cəmiyyətin gələcək inkişafina kömək göstərəcək istənilən əməkdaşlıq formasını qəbul etməyə hazır, müstəqil,öz sözünü beynəlxalq aləmdə yüksək tribunalardan deməyə qadir olan bir ölkədir.Biz bununla qürur duyuruq!

Konstitusiya günümüz mübarək!

***Svetlana Verdiyeva,***
***Tovuz RİH Hüquq şöbəsinin müdiri***



# Qeyri-neft sektorunun inkişafında ənənəvi sahələrə də xüsusi diqqət yetirilir

Ölkənin ən qabaqcıl kənd təsərrüfatı rayonlarından biri sayılan rayonumuzda payızlıq əkinlər uğurla davam etdirilir. İndiyəcən 6250 hektar buğda, 750 hektar arpa əkilmişdir. Əkin və səpin işləri davam etdirilir. Dənli bitkilərin səpildiyi sahələr suvarılır.

Rayonda ənənəvi əkin sahələrinin inkişafına xüsusi diqqət yetirilir. Bu sahələrin inkişafı üçün rayon icra hakimiyyətində yaradılmış mütəxəssislərdən ibarət komissiyalar gündəlik sahələrdə olur, görülmüş işlərə nəzarət edirlər.

Azərbaycan Respublikası Prezident Administrasiyasının məsul işçisi cənab Orxan Mürsəlov rayon icra hakimiyyətinin başçısı cənab Məmməd Məmmədovla birlikdə bu sahədə görülən işlərlə yerindəcə tanış olmuşlar. Hal-hazırda 28 sahibkar tərəfindən əkilmiş 50 hektar sahədə tütün yığımı, qurudulması və təhvil verilməsi prosesləri davam edir. İndiyəcən 432 ton tütün istehsal olunmuş və tədarük məntəqələrinə 31 ton qurudulmuş tütün təhvil verilmişdir. Bu sahə həm də əlavə iş yerlərinin açılması deməkdir. Beləki, mövsüm ərzində bu sahəyə 200 nəfərdən çox əlavə işçi qüvvəsi cəlb olunmuşdur.

Rayonun Aran kəndində tütünçü fermerlər Azad Qurbanov, Namiq Həsənov, Yaşar İsmayılov və digərləri ilə görüş zamanı onların becərdikləri 10 hektar tütün sahəsində hələ də kifayət qədər yaş tütünün olduğu və hazırda tütün yarpağının yığımının davam etdiyi məlum olmuşdur. Eyni zamanda fermerlərin həyətlərində toplanmış quru tütünə baxış keçirilmişdir. Qurudulmuş tütünün Şəki şəhərində tədarük məntəqələrinə təhvil verilməsi davam edir.

Fermerlər Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq istehsal olunmuş tütün məhsullarının tədarükü, saxlanılması və emalı məqsədi ilə Tovuz rayonunda tütün qurutma məntəqəsinin yaradılmasını xahiş etmişlər.

Rayonda baramaçılığın inkişafı istiqamətində davamlı tədbirlər həyata keçirilir. Belə ki, baramacılığın yem bazasının artırılması məqsədilə 2016-ci ildə Çin Xalq Respublikasından gətirilmiş 10000 ədəd, Meşələrin Mühafizəsi və Bərpası Müəssisəsi tərəfindən 2125 ədəd, 2017-ci ildə isə Çin Xalq Respublikasından gətirilmiş 3000 ədəd, ayrı-ayrı kəndlərdə isə 5000 ədəd yerli tut tingləri əkilmişdir.

Cari mövsümdə daha 8000 ədəd tut tinginin əkilməsi üçün yerlər ayrılmışdır. Tinglərin 3000 ədədi Kənd Təsərrüfatı Nazirliyindən, 5000 ədədi isə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yerli müəssisələrindən alınacaqdır. Bununla da rayon ərazisində tut tinglərinin cəmi sayı 28 min ədəddən çox olacaqdır.

Yerlərdə fermerlərlə ətraflı söhbətlər aparılmış, kənd təsərrüfatının inkişafına göstərilən dövlət qayğısından danışılmış, lazımi tövsiyələr verilmişdir.

*"Tovuz"*



# Səyyar qəbul-görüşlər davam etdirilir

## Razılıqla qarşılandı

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı cənab Məmməd Məmmədovun Düz Cırdaxan kəndində sakinlərlə növbəti səyyar qəbul-görüşü olduqca maraqlı keçmişdir. Səyyar qəbul-görüşdə kənd sakinləri, ayrı-ayrı xidmət sahələrinin rəhbərləri, yerli qurumların nümayəndələri iştirak etmişlər.

Səyyar qəbul-görüşü giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı cənab Məmməd Məmmədov möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən geniş miqyaslı işlərdən danışmış, yerlərdə səyyar qəbul-görüşlərin keçirilməsinin məqsədini açıqlayaraq, vətəndaş-məmur münasibətlərindən danışmışdır.

Qəbulda təklif və tənqidi qeydlər səsləndirən kənd sakinləri onlara göstərilən dövlət qayğısından razılıqlarını ifadə etmiş, ərazidən keçən magistral yolda piyada keçid nişanının quraşdırılması, şəhid ailələri üçün ayrılmış sosial sığorta haqqının ödənilməsinə kömək göstərilməsi, kənd tam orta məktəbinin tikintisi, kənddə körpələr evi-uşaq bağçasınında əlavə bir qrupun açılması, kəndin içməli su kəmərində təmir-bərpa işlərinin aparılması, həyətyanı torpaq sahəsinin ayrılması, yerli icra nümayəndəsinin və bələdiyyənin fəaliyyəti, işə qəbul və şəxsi məsələlərə dair müraciətlər etmişlər.

Sakinlərin çıxış və təkliflərini dinləyən cənab Məmməd Məmmədov qəbul zamanı vətəndaşlar tərəfindən qaldırlan məsələlərin bəzilərinin həlli üçün aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar vermiş, bir neçə müraciətlə bağlı vətəndaşlara qanunamüvafiq izahatlar vermişdir.

*"Tovuz"*

## Hər kəs öz sözünü dedi

Tovuz rayonu icra hakimiyyətinin başçısı cənab Məmməd Məmmədovun növbəti görüşü Xatınlı kəndində keçirildi. Tədbiri giriş sözü ilə açan icra başçısı ilk öncə ölkəmizin sürətli sosial-iqtisadi inkişafından, mövcud siyasi sabitlikdən, eləcə də son illər ölkə rəhbərliyinin müvafiq tapşırıqlarına əsasən Tovuz rayonunda həyata keçirilən geniş miqyaslı abadlıq-quruculuq işlərindən, sosial infrastruktur layihələrindən və hazırda bu istiqamətdə aparılan işlərdən danışdı.

Qeyd olundu ki, Xatınlı kəndində də bir sıra infrastruktur layihələr icra olunmuş, cənab Prezidentin müvafiq sərəncamlarına uyğun olaraq kənddə dövlət vəsaiti hesabına qazlaşma işləri aparılmış, yollara asfalt beton örtük qoyulmuş, hazırda isə içməli su layihəsi həyata keçirilir. Eyni zamanda Xatınlı kənd körpələr evi-uşaq bağçası əsaslı təmir olunmuşdur. Sosial xarakterli layihələrin bundan sonra da davam etdirilməsi nəzərdə tutulur.

İcra başçısı cənab Məmməd Məmmədov görüşdə iştirak edən sakinlərdən kənddə narahatlıq doğuran istənilən məsələnin açıq şəkildə səsləndirilməsini xahiş edərək, onların təklif və müraciətlərini dinləyib. Sakinlərin qaldırdıqları məsələlərlə bağlı aidiyyatı təşkilat rəhbərləri məlumat veriblər. İcra başçısı bir neçə msələni şəxsi nəzarətinə götürüb və operativ qaydada həlli istiqamətlərində müvafiq tapşırıqlar verib.

*"Tovuz"*

## Aran və Aşırallar kənd sakinləri ilə görüş

***Tovuz rayon İcra Hakimiyyətinin başçısı cənab Məmməd Məmmədovun növbəti səyyar qəbul-görüşü Aran və Aşırallar kəndlərinin sakinlərinin iştirakı ilə keçirildi. Bu görüşdə İH başçısı aparatının məsul işçiləri, idarə, müəssisə və təşkilat rəhbərləri iştirak edirdilər.***

Rayon İcra hakimiyyətinin başçısı cənab Məmməd Məmmədov ilk öncə çıxış edərək müstəqil Azərbaycan Respublikasının keçdiyi inkişaf yolundan, ölkəmizdə həyata keçirilən qlobal layihələrin əhəmiyyətindən, beynəlxalq aləmdə əldə olunan nailiyyətlərdən danışmışdır. İH başçısı çıxışında ölkəmizdə həyata keçirilən bütün tədbirlərin mərkəzində Azərbaycan vətəndaşının dayandığını və xalqımızın rifahının yüksəldilməsi istiqamətində görülən bütün işlərin və əldə olunan uğurların cənab Prezident İlham Əliyevin düşünülmüş siyasətinin nəticəsi olduğunu xüsusi vurğulamışdır.

Qəbulda söz alan kənd sakinləri onlara göstərilən dövlət qayğısından razılıqlarını ifadə edərək müxtəlif məzmunlu fikirlər söyləmişlər. Kənd sakinlərindən Hüseynalı Abbasov, Qədir Hümbətov, Rafiq Kazımov, Aidə Heydərova və başqaları Aran və Aşırallar kəndlərinin sosial-iqtisadi inkişafı ilə bağlı zəruri olan tədbirlərə diqqət çəkmiş və onların mərhələlərlə həllinə kömək göstərilməsini xahiş etmişlər. Səyyar qəbul-görüşdə səslənən içməli su təchizatı, kənd məktəbinin əsaslı təmir olunması, ərazidə körpələr evi-uşaq bağçasının açılması, elektrik təsərrüfatının yenilənməsi, kəndlərarası yolun təmir olunması, su arxlarının betonlanmasına və digər məsələlərlə bağlı aidiyyəti üzrə konkret tapşırıqlar verilmiş, bəzi tapşırıqların icrası nəzarətə götürülmüşdür.

Sonda rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov kənd sakinləri tərəfindən qaldırılan bütün məsələlərin araşdırılacağını və mərhələlərlə lazımi tədbirlər görüləcəyini vətəndaşlara bildirmişdir.

*"Tovuz"*

*Təbrik edirik!*

# Dərin zəkaya sahib görkəmli alim

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 5 noyabr 2018-ci il tarixli Sərəncamı ilə Azərbaycanda ədəbiyyatşünaslıq sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Qəzənfər Məmməd oğlu Paşayevə "Əməkdar elm xadimi" fəxri adı verilmişdir.***

***Yüksək mükafat münasibətilə eloğlumuzu ürəkdən təbrik edirik!***



Görkəmli ədəbiyyatşünas, folklorçu, dilçi, yazıçı, publisist, mətnşünas və tərcüməçi, filologiya elmləri doktoru, professor Qəzənfər Məhəmməd oğlu Paşayev həm də böyük Azərbaycanlı və istiqanlı tovuzludur. Qəzənfər müəllimi mən 17 yaşımdan tanıyıram. Qohumum Əsgər Kərimovgildə Qəzənfər müəllimin bacısı oğlu Əliyə İraqdan göndərdiyi bir açıqca görmüşdüm. Həmin açıqca elə idi ki, bir baxış bucağında cənab Əlinin və digər bucaqda İmam Hüseynin qızılla örtülmüş məqbərəsi həkk olunmuşdu. O açıqcada dayı öz bacısı oğluna ateizmin tuğyan elədiyi bir dövrdə sabitqədəm bir adam kimi babalarımızın inancına uyğun ən səmimi arzularını bildirmişdi...

O vaxtdan 45 il ötüb keçib... Tale elə gətirdi ki, sonralar mən Qəzənfər müəllimin məşhur "Altı il Dəclə-Fərat sahillərində" əsəri haqqında resenziya yazıb çap etdirdim. Təvazökarlıqdan uzaq olsa da deyim ki, o səmimi qəzet yazısı yazıçı Q. Paşayevin çox xoşuna gəlmişdi. Bu gün professorun əsərləri 7 cilddə nəşr olunaraq oxucuların istifadəsinə verilib. O cildlərdə çoxlu qiymətli əsərlər, monoqrafiyalar vardır. Onların hamısı dəyərlidir. Mənə görə isə "Altı il Dəclə-Fərat sahillərində" əsəri və bir də zəmanəmizin Dədə Qorqudu Mikayıl Azaflının həyat və yaradıcılığını fundamental şəkildə əks etdirən və professorun tərtibçiliyi və redaktorluğu ilə buraxılmış "Qoca Azaflıyam" kitab-abidəsi misilsizdir!

Qəzənfər müəllimin həyatı o qədər mənalı, yaradıcılığı o qədər vüsətli və zəngindir ki, onun haqqında indən belə də çoxlu monoqrafiyalar işıq üzü görəcək. Dəyərli eloğlumuz heç nə yazmasaydı belə mahir bir tərcüməçi kimi onun dilimizə çevirdiyi Aleksandr Dümanın "Qafqaz səfəri", Amerika alimi Sula Benetin "Necə yaşayasan yüzü haqlayasan" əsəri (sözarası onu da deyim ki, ötən əsrin 70-ci illərində ABŞ-ın İnsan Tədqiqatları İnstitunun alimi Benet Qafqaza, o cümlədən Azərbaycana gəlib burada insanlarımızın həyat və məişətini ,etnoqrafiyasını dərindən öyrənərək belə orijinal kitab yazmışdı.Öz-özümüzü yenidən tanıyıb kəşf etməyimizə kömək olacaq həmin kitabı məhz Qəzənfər müəllim ABŞ-da üzə çıxararaq Azərbaycan oxucusuna təqdim etmişdir) və "Nostradamusun möcüzəli aləmi" kitabı ilə Azərbaycan ədəbiyyatında qalmağa layiqdir. Əminəm ki, bu, elə belə də olacaqdır.

Ardıcıl, məqsədyönlü fəaliyyət göstərən iradəli alimimizin xalqımız və ədəbiyyatımız qarşısında xidmətləri var. Onları qısaca olaraq belə qruplaşdırmaq olar:

- Sayı 2.5 milyon nəfər olan İraq türkmanlarının yenidən Azərbaycana qovuşdurulmasında da Qəzənfər Paşayev müstəsna rol oynayıb. İraq türkmanlarına bağlılığına görə təsadüfi deyil ki, onu "Kərkük sevdalısı", "Kərkük pərvanəsi" adlandırırlar.
- "Qoca Azaflıyam" kitabına yazdığı ön söz və Mikayıl Azaflı yaradıcılığını janr və şəkillər üzrə qruplaşdıraraq onlar haqqında yazdığı lakonik və əhatəli nəzəri məlumatlar Azərbaycan ozanaşıq sənəti haqqında mükəmməl bilik kimi qəbul olunur.
- Öz fəaliyyəti, qələmə alıb nəşr etdirdiyi əsərləri ilə tovuzlu ruhunu, bizim yerin insanlarını, mənəviyyatını bütün dünyaya nümayiş etdirir.
- Onun əsərləri zəngin xəzinədir. Kərküyə məhəbbətini "bu sevda ölüncədir" şəklində ifadə edən professor "Kərkük bayatıları", "Arzu-Qəmbər" dastanı, "Kərkük mahnıları", "İraq-Kərkük atalar sözləri", "Kərkük tapmacaları", "Kərkük folklor antologiyası", "Nəsiminin İraq divanı" və ən nəhayət "İraq-türkman folkloru" kimi kitabları böyük əhəmiyyətə malikdir.
- Kərkükü Azərbaycana gətirən,"Bilmirəm haralıyam, torpağım-daşım qərib"- deyən Kərkük türkmanlarının vətən həsrəti və nisgili adamı göynədir. O, bir çox Kərkük ziyalılarını və Əbdüllətif Bəndəroğlunu tarixi vətəninə-Tovuza gətirdi. Tuz Xurmatı mahalı ilə Tovuzu yaxınlaşdırdı.(İraqın Azərbaycandakı səfirinin müşaviri bir zaman öz müsahibəsində demişdi ki, mən anamla görüşüb dedim ki, Azərbaycana işləməyə gedirəm, onda anam söylədi ki,gedib Qəzənfər müəllimi taparsan. Mənə nə köməyi dəyə bilər- dedim. Anam:- O sənə Kərkükü tanıdacaq, - söylədi. Doğrudan da belə oldu).

İti zəkaya malik müdrik alim, milli qeyrət sahibi, vətənpərvər ziyalı olan Qəzənfər Paşayev tədqiqatçıların və alim həmkarlarının qeyd etdiyi kimi Şərq ziyalı tipi ilə Qərb ziyalı tipini özündə şəxsiyyətində birləşdirə bilən nadir ziyalılarımızdandır. Yaradıcılığı və şəxsiyyəti zəngin xəzinə olan Qəzənfər müəllim öz təmkini, alicənablığı və vüqarı ilə xalqımız kimi bütün tovuzluların da fəxr etdiyi və ürəkdən sevdiyi dəyərli eloğlumuzdur. O, hamımızın oxşamaq istədiyimiz etalon şəxsiyyət və Tovuzun simasıdır.

Bizim Qovlarlı şair Rəsul deyir ki, "Rəsul, hörmət görsən bir ağır borcdu". Qəzənfər müəllim bir gün çörək kəsdiyi qapıya 40 il salam verən kişilərdəndir. Onun öz müəllimlərinə və onlarca başqalarına münasibəti əsl insanlıq fəlsəfəsi kimi öyrənilib yayılmalıdır. Eyni zamanda onun həmyerlilərinə, qohumlarına, adi insanlara, tanımadığı kəslərə belə təmənnasız yardımı və köməyi ürəklərdə alimimizə, bu böyük ziyalıya abidə ucaltmışdır. Yeri gəlib, bir olmuş hadisəni danışmaq istəyirəm. Bunu da mənə bir Ucarlı dostum söyləyib. Qəzənfər müəllim 90-cı illərin o çətin vaxtlarında ailəsi ilə birgə Tovuzdan Bakıya gedirmiş. Yol kənarında küreyinə şitil şələsi alıb gedən yaşlı bir qadın görür. Payızın çiskinində qadının o görkəmi ona necə təsir edibsə maşını saxladıb şitilin birini neçəyə satdığını soruşur. Pulunu artıqlaması ilə verib onu alıb maşına yüklədir.Xeyli aralalandan sonra isə kənd evlərinin birinin qarşısında saxladıb ev yiyəsini çağırıb deyir ki, bunlar mənə lazım deyil- sizə bağışlayıram, siz də ehtiyacı olanlara verəsiniz... Başdan-başa humanizmlə yoğrulmuş insaflı və halal eloğlumuzun özünün də yadından çıxdığı ( bilərəkdən özünün heç vaxt dilə gətirmədiyi) belə misalları və başqalarına görk olası örnəkləri yüzlərcədir..

Nurlu və parlaq xarismatik şəxsiyyət, dərin zəkaya və geniş erudisiyaya malik Qəzənfər müəllimi 45 il bundan irəli necə görmüşdümsə, yaddaşı, zəkası və təmkini necə idisə bu gün onun hafizəsi o vaxtkından da itidir, ağlı və hamı tərəfindən qəbul olunan hörmət və nüfuzu ilə həmişə imdada yetir,ağırtaxtalı ağsaqqaldır. (eloğlumuz Azərbaycan Respublikası Ağsaqqallar Şurası sədrinin birinci müavinidir).İndi o, bitib tükənməyən yaradıcılıq enerjisi ilə yaşayıb yaradır. Qəzənfər Paşayevi sevənlər adından özümün ən səmimi hisslərimi dilə gətirərək söyləyirəm ki, ustad, qohum və əsl ziyalı, Sizi 100 yaşayın! Siz xalqın alqışını qazanan və xeyir-dua almış bir Kişi kimi əsrin dizini qatlamağa və indən belə də bir qənirə yaşamağa borclusunuz.

***Bəhruzər Rüstəmov.***

2018-ci ilin yanvar-sentyabr aylarında sənaye müəssisələri və sənaye fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən görülən işlərin və göstərilən xidmətlərin həcmi faktiki qiymətlərlə 7236,5 min manat olmuşdur. Sənaye məhsulunun həcmi müqayisəli qiymətlərlə 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz artmışdır.

# 2018-ci ilin yanvar-sentyabr aylarında sənayenin işi haqqında

2018-ci ilin yanvar-sentyabr aylarında 19 sənaye müəssisələrindən 10-u (52,6 faizi) fəaliyyət göstərmiş və onların 5-i dövlət, 5-i isə qeyri-dövlət mülkiyyətidir.

Sənayedə 65,6 faiz xüsusi çəkiyə malik dövlət müəssisələri tərəfindən 4745,5 min manatlıq, 34,4 faiz xüsusi çəkiyə malik qeyri-dövlət müəssisələri və fiziki şəxslər tərəfindən 2491,0 min manatlıq məhsul istehsal olunmuş və xidmətlər göstərilmişdir.

2018-ci ilin ilk 9 ayında sənaye müəssisələri və fiziki şəxslər tərəfindən istehlakçılara 7832,7 min manatlıq mal göndərilmiş və hesabat dövrünün sonuna anbarlarda 659,0 min manatlıq öz istehsalları olan hazır məhsul qalmışdır.

Rayon üzrə ümumi məhsul buraxılışının həcmində sənaye məhsulunun həcmi 2,3 faizdir.

2018-ci ilin yanvar-sentyabr aylarında sənayedə faktiki işləmiş işçilərin sayı 774 nəfər, ötən ilin müvafiq dövrü ilə müqayisədə 31,3 faiz artmışdır. Onlardan 9 nəfər mədənçıxarma, 122 nəfər emal sənayesində, 241 nəfər elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 402 nəfər isə su təchizatı və tullantıların yığılması sahəsində işləyənlərdir.

Hesabat dövründə bir nəfər işçiyə düşən orta aylıq nominal əmək haqqı 285,3 manat, o cümlədən dövlət sektoru üzrə 303,2 manat, qeyri-dövlət sektoru üzrə 197,4 manat təşkil etmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə orta aylıq əmək haqqı dövlət sektoru üzrə 16 faiz azalmış, qeyri-dövlət sektoru üzrə isə 15,9 faiz artmışdır.

Sənaye müəssisələrinin fəaliyyətlərinin yaxşılaşdırılması və genişləndirilməsi üçün həmin müəssisələrə yeni texnologiyaların alınması və qurulması, investisiyaların ayrılması və cəlb edilməsi günün ən vacib sayılan tələbi kimi qalmaqdadır.

***Niyazi Tağıyev,***
***Tovuz Rayon Statistika İdarəsinin rəisi***

# Üçrəngli bayrağımız dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir

***Hər bir dövlətin, millətin varlığını təsdiqləyən, əsrdən əsrə, nəsildən nəslə ərmağan olan, varlığını bildirən bayraqlar ululardan miras qalan müqəddəs əmanət, varlıq simvoludur. Bayraq adi parça deyil, müqəddəslik rəmzidir.Tarixdə adını yaşadan sərkərdələrin düşmən üzərində qələbəsinin zəfər müjdəçisi, "tuğ" adlandırılan bayrağımız alınmaz qala kimi toxunulmaz sayılmış, ucadan uca hesab edilmişdir. Elə buna görə də daim başımızın üstündə saxladığımız bayrağımız sevincimizin ilk şahidi, qələbə müjdəçisi sayılır. Bu müqəddəsliyi təsdiqləyən amillərdən biri də dövlət başçılarının səmavi kitablarla birgə bayraq qarşısında and içib xalqına, Vətənə sadiq qalacaqlarına söz verməleridir.***

Elə bir dövlət himni yoxdur ki, orada həmin ölkənin bayrağının adı çəkilməsin. Azərbaycanın dövlət himnində də ölkə vətəndaşlarına üçrəngli bayrağımızla məsud yaşamaq, xalqımıza daim ucalmaq amalı arzulanır. Döyüşlərdə bayrağı silahı kimi canı, qanı ilə qoruyan igidlərimiz çoxdur. "Zəfər güllərini üstündə göyərdən, tarixdən qədim, zamandan qoca adlandırılan" bayraq yalnız onun uğrunda ölən şəhidlərin ruhu qarşısında "baş əyir", qəhrəmanlara özü kimi əbədilik qazandırır.Vətən uğrunda ölməyi, onun müqəddəsliyinin qorunmasını şərəf işi hesab edən ulu öndər Heydər Əliyev üçün dövlət bayrağı milli azadlığa, milli oyanışa, milli ruhun canlanmasına bələdçi, çağırış idi....

1990-cı ildə doğma vətəni Naxçıvana qayıdaraq Azərbaycanın müstəqilliyinin əbədiliyi naminə fədakarlığını vətəndaş yanğısı və məsuliyyəti ilə davam etdirən ümummilli lider Heydər Əliyevin gördüyü işlərin hər biri bir salnamə kimi tariximizə yazılsa da onların arasında gələcək taleyimizi müəyyənləşdirən, əhəmiyyəti ilə seçilənləri də az deyildir. Ən böyük azərbaycanlı olduğunu 17 noyabr 1990-cı ildə təcrübəli dövlət xadimi kimi sədrlik etdiyi Naxçıvan MSSR Ali Məclisinin sessiyasında irəli sürdüyü təklifi ilə bildirən ulu öndər Heydər Əliyevin qətiyyəti nəticəsində muxtar respublikanın adından "sovet sosialist" sözləri götürüldü.

Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş bayrağın, gerbin və dövlət himninin bərpası ilə bağlı möhtəşəm qərar qəbul olundu. Mavi rəngi ilə türkçülük ideyasına sadiqliyini, qırmızı rəngi ilə müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəngi ilə İslam sivilizasiyasına mənsubluğunu ifadə edən bayrağımızla Azərbaycanın müstəqilliyinin, əbədiliyinin, milli dövlətçiliyimizin kövrək təməli qoyuldu.

Naxçıvan MR Ali Məclisinin Sədri kimi dövlət atributlarını bərpa edən ulu öndər Heydər Əliyevin: "Azərbaycan bayrağı sadəcə bayraq deyil. O bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Bu, bizim müstəqil dövlətimizin rəmzidir. Ona görə də gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin. Onda bayrağa olan məhəbbət eyni zamanda Vətənə, xalqa, dövlətə olan məhəbbətə bərabər olsun" sözləri bayrağımızın müqəddəslik rəmzidir.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi ilə Prezident seçilən ümummilli lider Heydər Əliyev andiçmə mərasimində bir daha dövlətçilik rəmzi olan atributlara sədaqətini bayrağımızı öpməklə ifadə etmişdir: "Dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət quruluşu yaratmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, ölkəmizi müharibə şəraitindən çıxarmaq, respublikanın vətəndaşlarının rifahını yaxşılaşdırmaq, onların yaxşı yaşaması üçün lazımi şərait yaratmaq- bu vəzifələr mənim Prezident fəaliyyətimdə əsas istiqamətlər olacaqdır və mən bunların həyata keçirilməsinə çalışacağam."Bu siyasətə sadiq qalan cənab Prezident İlham Əliyev 17 noyabr 2007-ci ildə Bakıda Dövlət Bayrağı Meydanının yaradılması ilə bağlı Sərəncam imzalamaqla sınanmış ideyaları reallaşdırdı, bayrağımıza ümumxalq ehtiramını, məhəbbətini artırdı. Varlığımızı təsdiqləyən bayrağımızla bağlı bu tarixlərin il fərqi olsa da eyni günə təsadüf etməsi Ulu Öndərin ideyalarına sadiqlik ifadəsi oldu.

50 milyonluq Azərbaycan xalqı böyük qürur hissi keçirdi. Üçrəngli bayrağımız müstəqilliyimizin rəmzi kimi BMT-nin, Avropa Şurasının, ölkəmizi başqa dövlətlərdə təmsil edən səfirliklərimizin qarşısında əzəməti ilə ucalır. Şərəfimiz, müstəqilliyimizin əbədi qarantı olan bayrağımızın dalğalanması da əsrlər boyu xalqımızın azadlığının, müstəqil siyasətimizin, suverenliyimizin, bütün xalqlarla bərabər yaşamaq hüququmuzun ifadəsi, arzuların reallaşması oldu.

Prezident İlham Əliyevin "Bakı şəhərində yerləşən Dövlət Bayrağı Meydanında tikinti-quraşdırma və abadlaşdırma işlərinin sürətləndirilməsi üçün əlavə tədbirlər haqqında" Sərəncamından sonra işlərin sürətləndirilməsi üçün lazımi tədbirlər görüldü. Ölkə başçısının 17 noyabr 2009-cu il sərəncamı ilə Dövlət Bayrağı Günü təsis olundu. Beləliklə, hər il 9 noyabr tarixi respublikamızda Dövlət Bayrağı Günü ümumxalq bayramı kimi qeyd olunur. Azərbaycanın beynəlxalq aləmdə böyük nüfuza malik qüdrətli dövlətə çevrildiyini 1 sentyabr 2010-cu ildə Dövlət Bayrağı Meydanının təntənəli açılışındakı çıxışında qeyd edən Prezident İlham Əliyev müstəqilliyimizin atributlarının əks olunduğu meydanın yaranmasında məqsədin respublikanın daha da güclənməsinə, tanınmasına, dünya birliyində mövqeyinin möhkəmlənməsinə yönəldiyini vurğuladı. Meydanda qurulmuş Azərbaycan Respublikasının gerbi, dövlət himnimizin mətni və ölkəmizin xəritəsi qızıl suyuna salınmış bürüncdən hazırlanıb. Dövlət Bayrağı Muzeyi əsl mənada Azərbaycanın qəhrəmanlıq tarixinin simvolu, "Dünən var idik, bu gün yaşayırıq, sabah da olacağıq" söyləyən hər bir azərbaycanlının qürur duyduğu keçmişə uzanan yaddaşdır.

Bayrağımızın müqəddəsliyini Azərbaycandan uzaqlarda belə qorumaqla gəncliyə nümunə göstərən, dövlət atributumuzun toxunulmazlığını hər bir vətəndaşın şərəf işi olduğunu bildirən, Azərbaycan bayrağını təhqir edən erməni şovinistinə layiq olduğu dərsi verməklə hərbçi şərəfini və dövlətçiliyimizin müqəddəsliyini, toxunulmazlığını qoruyan Ramil Səfərovun bu hərəkəti bayrağımıza sədaqətin məntiqi ifadəsi oldu. Ramilin Azərbaycana dönüşünü, azadlığa buraxılmasını Prezident İlham Əliyevin bir dövlət başçısı, zabitinin şərəfini qoruyan Ali Baş Komandan kimi qətiyyətinin təntənəsi, haqq-ədalətin qələbə simvolu adlandıran xalqımız sevincini bayrağımızı əbədi uğurlarımızın şahidi kimi dalğalandırmaqla bildirdi.

Paytaxtımızın ən uca, əzəmətli və görməli güşəsində yerləşən Dövlət Bayrağı Meydanı memorial abidə-istirahət parkı şəhərimizə gələn bütün qonaqların diqqətini cəlb edir. Əzəməti ilə seçilən Azərbaycanın bayrağı Ginnesin Rekordlar kitabına salınıb. Dövlət bayrağımız ölkəmizdən kənarda belə Vətənimizin varlığını təsdiq edir. "Eurovision-2012" mahnı müsabiqəsində, XXX London Yay Olimpiadasında ölkəmizə birincilik qazandıran qaliblərin şərəfinə ucaldılan bayrağımız sivilizasiyalararası dialoq məkanı, mədəniyyətlərin qovuşduğu respublika kimi mötəbər məclislərə ev sahibliyi edərək qonaqları da salamlayır. Olimpiadalarda, beynəlxalq yarışlarda idmançılarımızın qələbəsini, " qızıl uğurunu" yüksək pillədən dünyaya çatdıran Azərbaycan bayrağı Birinci Avropa Oyunlarında 21, IV İslam Həmrəyliyi Oyunlarında 75 dəfə belə "şansa" sahib oldu. Bayrağımız hələ neçə-neçə möhtəşəm idman və musiqi bayramlarında ölkəmizə uğur qazandıracaq."Azərbaycan beynəlxalq arenada özünə layiq yerini tuta bilmişdir.

Xarici tərəfdaşlarımızın, dostlarımızın sayı gündən-günə artır. Azərbaycan çox gözəl beynəlxalq imicə malikdir. Bizim bütün xarici siyasətimiz bir məqsədi güdür ki, Azərbaycanın milli maraqları maksimum dərəcədə təmin olunsun, Azərbaycan dövləti güclənsin və Azərbaycan xalqı daha da yaxşı yaşasın" söyləyən Prezident İlham Əliyevin xarici səfərlərində ölkəmizin tanıdılması üçün söylədiyi xoş sözlərin ilk "dinləyicisi" də xitabət kürsülərinin bəzəyi, Azərbaycanı təmsil edən bayrağımız olur.

Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanın müstəqil siyasəti bütün uğurların başlıca şərti olduğu kimi, müstəqilliyimiz də ən böyük sərvətimiz, xoşbəxtliyimizdir. Müstəqillik simvolumuz isə bayrağımızdır. Ölkəmizdə bütün millətlərin nümayəndələri, müxtəlif dini konfessiyalara məxsus insanlar mehribanlıq, dostluq şəraitində yaşayırlar. Azərbaycan tolerant və multikulturalizm prinsiplərini əks etdirən milli-dini dözümlülük məkanı kimi nümunə kimi göstərilir. Azərbaycan öz gücünə arxalanan, bütün tərəfdaşları ilə münasibətlərini qarşılıqlı hörmət və ehtiram prinsipləri əsasında qurmağa çalışan, dinamik inkişaf edən, regional sabitlik, təhlükəsizlik məkanıdır.Prezident İlham Əliyev andiçmə mərasimində məhz bu bayraq altında xalqına daim sədaqətlə xidmət edəcəyini bildirmiş, Azərbaycanı iqtisadi qüdrəti ilə seçiləcək ölkə səviyyəsinə qaldıracağı vədini vermiş və andına sadiq qalmışdır. Bu gün Azərbaycan adlı bir məmləkət bütün Avropanı qazandığı iqtisadi nailiyyətləri ilə fəth edirsə bu, daim uca tutulan bayrağımız qarşısında dövlət başçımızın öhdəsinə götürdüyü məsuliyyətə, vədinə sadiqlik rəmzidir.Gün gələcək müstəqilliyimizin, suverenliyimizin ifadəsi, düşmənə göz dağı kimi Lələtəpədə dalğalanan bayrağımız işğal altında qalan bütün torpaqlarımızda dalğalanacaq, silahdan də kəsərli əzəməti ilə varlığımızı təsdiqləyəcək.

Bu ünvanların Prezident, Ali Baş Komandan İlham Əliyevin əmri ilə azad olunacağını bildirən Azərbaycan xalqı dövlət başçısının bu sözlərinin reallaşacağına tam əmindir: "Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq."



*Humay Aslanzadə,*
*Heydər Əliyev Mərkəzinin direktoru*

# Tur-aksiyada iştirak edəcək məktəblilərlə görüş keçirilib

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi altında keçirilən tur-aksiya layihəsi çərçivəsində Tovuz şəhəri Heydər Əliyev Mərkəzində növbəti tur-aksiyada iştirak edəcək məktəblilərlə görüş keçirilib.***

***Şura üzvlərinin, idarə, müəssisə və təşkilat rəhbərlərinin, məktəb direktorlarının, valideynlərin, veteranların və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov ilk öncə məktəbliləri salamlamış və tədbir iştirakçıları qarşısında çıxış etmişdir.***




Cənab M.Məmmədov xalqımızın gələcəyi olan uşaqlara göstərilən dövlət qayğısından danışaraq qeyd etmişdir ki, "Ölkəmizi tanıyaq" devizi altında keçirilən tur-aksiyaların gənc nəslin hərtərəfli inkişafında , vətənə, tariximizə, mədəniyyətimizə, milli adət-ənənələrimizə hörmət və məhəbbət ruhunda tərbiyə edilməsində, ölkəmizdə aparılan genişmiqyaslı tikinti – quruculuq işləri ilə əyani tanış olmasında müstəsna əhəmiyyəti vardır. M. Məmmədov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdləri üçün artıq 10-cu dəfədir ki, "Ölkəmizi tanıyaq" maarifləndirici tur-askiyası təşkil edildiyini və Tovuz rayonunun məktəblilərinin də müxtəlif istiqamətlər üzrə şəhər və rayonlarımıza səfər etdiklərini, həmin yerlərin tarixi abidələri, mədəni və görməli yerləri ilə tanış olduqlarını diqqətə çatdırıb. Növbəti 10-cu tur-aksiyasının Qəbələ-Şəki-Zaqatala istiqaməti üzrə təşkil edildiyini söyləyən rayon rəhbəri, məktəblilər arasında biliyi və istedadı ilə seçilən 40 nümunəvi şagirdin noyabr ayının 18-dən 21-dək həmin rayonlara səfər edəcəklərini bildirib.

Daha sonra Rayon İcra Hakimiyyəti başçısı qeyd edib ki, Ümummilli liderimiz Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycan dünyada layiqincə tanınaraq qəbul olunur. Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamız dinamik inkişaf edir, şəhər və rayonlarımız abadlaşaraq siması yeniləşir və gözəlləşir.

Azərbaycan "Əsrin müqaviləsi" adını almış neft kontraktının vaxtını uzatmaqla, Cənub Qaz Dəhlizini yaratmaqla, TAP və TANAP layihələrini uğurla icra etməklə Avropanın enerji təhlükəsizliyində çox mühüm rola malik bir ölkəyə çevrilmişdir. Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsinin böyük əhəmiyyəti vardır. Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yaradılması ilə ölkəmiz beynəlxalq logistika mərkəzinə çevrilmişdir. Oktyabr ayının 19-da Türkiyədə "STAR" Neft Emalı Zavodu istifadəyə verilmişdir. Həmin qlobal layihələr Azərbaycana bundan sonra da uzun illər boyu böyük gəlirlər gətirməklə onun dünya səviyyəsində yerini daha da möhkəmlədəcəkdir. Azərbaycan dünyanın məhdud sayda olan kosmos ölkələrindən biridir. Azərbaycanın üçüncü peyki olan "Azərspace-2" peykinin orbitə buraxılması bunu bir daha göstərdi.

Ölkəmizin beynəlxalq nüfuzu getdikcə artır və Azərbaycan dünya birliyində öz yerini möhkəmləndirir. 2018-ci ilin 9 ayı ərzində cənab Prezident 12 xarici ölkələrə səfər etmiş və 15 dövlət və hökumət başçısı Azərbaycana səfər etmişdir.

Bu gün ölkəmiz beynəlxalq humanitar forumlara, möhtəşəm dünya çempionatları və Olimpiya idman oyunlarına ev sahibliyi edir.

Ölkəmizdə ictimai-siyasi sabitlik qorunub saxlanılır. Azərbaycanımız dünyəvi, tolerant, multikultural dövlət kimi şöhrət qazanmışdır. Gənclərimiz asudə vaxtlarının səmərəli keçirilməsi və intellektual səviyyələrini yüksəldilməsi məqsədilə hərtərəfli qayğı ilə əhatə olunmuşlar.

Cənab Prezidentimiz, Birinci vitse-prezident Mehriban xanım Əliyeva ölkədə təhsilin, səhiyyənin, mədəniyyətin, idmanın inkişafına, ekologiyanın qorunmasına böyük diqqət yetirirlər. Hər il ölkə vətəndaşları pulsuz müayinəyə cəlb olunur, şəhid və əlil ailələrinin, qaçqın və məcburi köçkünlərin, aztəminatlı ailələrin qayğıları diqqət mərkəzində saxlanılır.

Ölkəmizdə gənclərin hərbi vətənpərvərlik tərbiyəsinə böyük önəm verilir. Bu sahədə görülən məqsədyönlü işlərin nəticəsi olaraq və Azərbaycan Ordusunun hünəri sayəsində 2016-cı ilin aprel döyüşlərində böyük uğurlar əldə olunmuşdur. Dağlıq Qarabağa "Böyük Qayıdışın" ilk müjdəsi olan Cocuq Mərcanlı kəndinin yenidən qurulması, orada müasir infrastrukturla yanaşı Şuşa məscidinin bənzərinin tikilməsi düşmənləri vahiməyə salmışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycanlıları soyqırımının 100 illiyinin qeyd olunması Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasında böyük rol oynamışdır.

Cənab Prezidentin tapşırığı ilə həyata keçirilən belə tur aksiyalar siz gənc nəslə göstərilən qayğının yeni parlaq nümunəsidir.

Çıxış edən müəllimlər, valideynlər və tur iştirakçıları qeyd etdilər ki, bu layihə məktəblilərə vətənpərvərlik tərbiyəsi aşılanmasında, gənclərə Vətən tarixinin öyrədilməsində, onların respublikamızın sosial-iqtisadi inkişafı haqqında məlumatlandırılmasında böyük əhəmiyyətə malikdir və əvəzsizdir. Bu tədbirlər həm təhsil işçiləri, həm də valideynlər tərəfindən razılıqla qarşılanır. Ölkəmizin tarixini, mədəniyyətini daha geniş, əyani şəkildə öyrənmək imkanı yaratdığına görə ölkə başçısı cənab İlham Əliyevə minnətdarlıqlarını bildirdilər.

Görüşü yekunlaşdıran M. Məmmədov bu tur-aksiyanın şagirdlərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayacağını qeyd edərək tur-aksiya iştirakçılarına yaxşı yol arzulayıb.

Sonda tur-aksiya iştirakçılarına müasir dizayn olunmuş formalar və mübadilə məqsədilə xatirə hədiyyələri təqdim olunmuşdur.

*"Tovuz"*

# Tovuzlu məktəblilər Qəbələ-Şəki-Zaqatala istiqaməti üzrə yola salınıblar

***Tovuz şəhəri Heydər Əliyev Mərkəzinin qarşısında rayon icra hakimiyyətinin məsul işçilərinin, təhsil şöbəsinin əməkdaşlarının, müəllimlərin və valideynlərin iştirakı ilə təhsildə fərqlənən bir qrup məktəblinin "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində Qəbələ-Şəki-Zaqatala rayonlarına təntənəli yolasalma mərasimi keçirilmişdir.***




Tovuz rayonunun ümumtəhsil məktəblərindən öz təhsili və nümunəviliyi, ictimai həyatda fəallığı ilə fərqlənən 40 nəfər 9-11-ci sinif şagirdləri və onları müşayiət edən 5 bələdçi dörd gün ərzində tur-aksiyanın səfər proqramına uyğun olaraq Qəbələ-Şəki-Zaqatala istiqaməti üzrə səyahət edəcək, rayonların tarix və mədəniyyət abidələri, görməli yerləri, sosial-iqtisadi inkişaf sahəsində qazanılan nailiyyətlərlə yaxından tanış olacaq, müxtəlif tədbirlərdə iştirak edəcəklər.

Məktəblilər ilk öncə Heydər Əliyev meydanında Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, abidənin önünə gül dəstələri qoymuşlar. Sonra Heydər Əliyev Mərkəzinə gedərək dahi şəxsiyyətin həyat və fəaliyyəti ilə bir daha tanış olmuşlar.

Yolasalma mərasimində çıxış edən Tovuz rayon İcra hakimiyyəti başçısı Məmməd Məmmədov ölkəmizdə gənclərə göstərilən dövlət qayğısından danışmış, tur-aksiya iştirakçılarına öz tövsiyələrini vermiş və onlara yaxşı yol arzulamışdır.

Xatirə şəkilləri çəkdirdikdən sonra rayonun mədəniyyət mərkəzinin rəqs qrupu iştirakçılar qarşısında rəqs nömrələri ilə çıxış etmiş və musiqi sədaları altında tur-aksiya iştirakçıları Qəbələ-Şəki-Zaqatala istiqaməti üzrə yola salınmışdır.

*"Tovuz"*

Sayalı Yurdlar

# "Sınaqlı"nın sayası və nakam məhəbbət nişanı

***Tovuzumuzun tarixi Xınna və Əsrik dərələri arasında böyük bir dağ massivi boy verir. Qovlar, Dönük Qırıqlı, Alakol, Köhnəqala, Məşədilər, İbrahimhacılı, Yanıqlı, Aşağı Quşçu, Bayramlı, Əsrik Cırdaxan kəndləri və digər elatların insanlarını bəhrələndirən Mamırtı adının mənası tarixi qaynaqlarda elə su ayrıcı anlamında da keçir. Bundan savayı oğuz boylarından olan Eymur adı da " mah-mur"la (başqa sözlə Mamırtı) səsləşir.***

Mamırtı dağımız ayağı dinc, məxmər çəmənli, gendən baxanda iri yastı təpələri xatırladan dağ silsiləsidir. İlk baxışda orada heç bir qaya - qafçıxdan əsər- əlamət görünmür. Zəyəm baxarının Alakol İnzibati Ərazi Dairəsinin Məşədilər kəndi səmtində isə Mamırtının o hissəsində sütunvari qayalar, dik və sıldırım yamaclar diqqət çəkir. Həmin o yerlər Sınaqlı dağı və onun həndəvərləri olan qeyri -adi auraya və enerjiyə malik məkandır... Mamırtıdakı sayalı yerlərdən biri də "Sınaqlı"dır. Ətraf yerin insanları buraya qutsal bir məkan kimi yanaşır və onu çox uca tuturlar. Adamlar onu dəfələrlə sınaqdan keçirib və sayalı ocaq olduğuna görə ona Sınaqlı deyir. Doğrudan da "Sınaqlı"nın yerləşdiyi ərazi Zəyəm çayı vadisindən baxanda əlçatmaz yalçın qayalıqda yerləşir. Sözün birbaşa mənasından əlavə həm də o yerin insanlarını saf diləyə qovuşduran mistik bir məkandır "Sınaqlı". Buranın axar-baxarı öz yerində . Həmin zirvəyə çıxan adam ordan irəli-geri,ətrafına baxıb göz işlədikcə uzanan gözəllikləri gördükdə onun köksü qabarıb xəyalları qanadlanır...

- Dünya binnət olandan bu yerlərdə yaşayan köklü tayfaya mənsub eşqli bir oğlan qonşu obadan bir qız sevirdi. İnanclı oğlanla dini etiqadı eyni olmayan qız da bir könüldən min könülə bu türk ərəninə vurulmuşdu. Onların bir-birinə olan məhəbbəti artıq dillərdə dastana çevrilmişdi. Di gəl ki, o tərsa (xristian) gözəlinin keşiş olan atası onların qovuşmasına razılıq vermirdi. Tək Tanrıya inanan oğlanın sabitqədəmliyi, öz inancından dönməməsi qızın atası keşişi daha da tərsləşdirir, oğlan adamlarını heç vəhclə yaxın qoymurdu. Günlərin bir günü Xavərzəmin şəhərindən olan oğlan Zəyəm çayının sağ sahilində --- dağların başında bərqərar olan o kənddəki sevgilisini götürüb qaçırtdı. Bir-birinə qoşulub qaçan istəkliləri keşişin təhriki ilə atlılar qovaqova Mamırtının o yalçın zirvəsinə qısqayıb qomarqaladılar. Bütün yollarının kəsildiyini görən, amansız təqibçilərdən yaxa qurtara bilməyəcəklərini anlayan sevgililər Tanrının dərgahına üz tutub yalvardılar ki, onları qeybə çəksin. Böyük Yaradan içdən gələn yalvarışları eşidəndi. Bu dünyada bir-birinə qovuşa bilməyənləri Tanrı öz dərgahına qəbul edir və onlar bunların dalınca düşənlərin gözü qarşısında birdənbirə qeybə çəkilirlər...

O vaxtdan bu vaxta həmin məkan adamların ziyarətgahına çevrilir. O alban keşişinin heç cür bağışlanmayan işdəyindən böyük peşmançılıq yaranır. Nəsildən -nəsilə keçib gələn o günahı yumaq üçün keçmişlərdə Bada, Kamandar, Atabəy, Nüzgər, Çardaqlı, Barum, Barsum, Saler və başqa kəndlərin adamları qəflə qatırla bazar günləri ( yaz aylarında daha sıx-sıx) iki nakam cavanın qeybə çəkildiyi məkana - "Sınaqlı"ya gələrdilər. Həmin qayanın başına dolanaraq dini rəhbərləri olan keşişin fitvası ilə batdıqları böyük günahlarını yumaq üçün orda qurbanlar kəsərdilər. Onlar, elə bil ki, o iki cavanın bu dünyada baş tutmayan, ancaq Haqdan gələn toyları üçün çalıb oxuyar, şənlənib sanki onların ruhuna xeyir -dua verərdilər. Rəvayətə görə oğlanın da ruhu hər gün o başdan oralarda peyda olar, gəlib qeybə çəkildikləri qayanın üstünə çıxarmış... Unudulmaz Müzəffər Sarıoğlu o cavanın nakam eşqini öz misralarına hopdurmuşdu:

***Elə ki, sökülərdi dan,***
***Peyda olardı bir oğlan.***
***Xəbər varmı o oğlandan,***
***Sınaqlının zirvəsində.***

Arxaik, koloritli və zəngin tarixə şahidlik edən Mamırtının Sınaqlısı da özündə çox böyük ruhi enerjini yaşadır. Ətrafda xalqın "div qalası" dediyi siklop tikili olan bir qalaça da var. O qalaçada saxsı parçaları, küp və keramika məmulatlarının qalıqları və digər maddi-mədəniyyət nümunələrinə tez-tez rast gəlinir. Deyilməyə görə o qalaçadan kənara iki yeraltı yol uzanır: biri karvan yolunun yaxınlığındakı uludan ulu Torpaqqalaya, biri də Zəyəm çayının altından keçməklə Tatarla Məşədilər arasındakı Qız qalasına. Həmin gizli yolları da bizim bu torpağın yenilməz bahadırı Salsal pəhləvan və onun qardaşı Nadir saldırıb onlardan istifadə edirmişlər. Hələ vaxtilə qara arxeoloqlar o qalaçada xəzinə tapmaq istəyi ilə qazıntı aparanda dünyagörmüş ağsaqqallar demişdi ki, əvvəla, oranı eşməyin - günahdı, işdi, qazası olsanız gördünüz ki, külək qalxdı əl saxlayın. Elə qocalar deyən kimi də olur.

"Sınaqlı" ətrafında Pir bulağı, Pir boynu, Quş qaya, Tor yeri, Bala tor yeri, Pir çinar, Eşşək talası, Sallax, İyli bulaq, Noylu bulaq, Baş bulaq, Top bulaq, Kor bulaq, Şır-şır, Düldül dağı kimi yeryurd adları var. Adamlarımızın ilkin inanclarını qabarıq şəkildə özündə təcəssüm etdirən ağac kultunun baris nümunəsi olan Pir Çinar haqqında bir qədər geniş danışmaq istərdik. Şərq çinarından olan həmin ağac çox iri gövdəlidir və onun yaşı bilinmir. Ağacın üç-dörd iri koğuşu var və onun kölgəsi altında böyük sürülər mətərislənə bilir. Nə qədər ehtiyac olsa da adamlar onun bir kıxmığına da toxunmayıblar. Hacıqaralar nəslindən olan ağsaqqal Mehdi kişi danışarmış ki, bir dəfə birisi həmin çinardan bir at yükü odun eləyib evinə gətirir. Eşidibbilən nə qədər onu danlayıb dinaz altında qoyurlarsa da o bildiyini eyləyir və gətirib o odunu evində yandırır. İraq eşidənlərdən, iraq üzünüzdən həmin o kəsin nəslindən sonra bir keçi başı tutan da qalmır.

- Xalqın milli-mənəvi dəyərlərini ayaqlayanlara, gəlmişi-keçmişi unudanlara,babalarımızın inanclarına şəkk edənlərə min lənət!

***Axar-baxarlı Əsrik dərəsinin - Quşçu dərəsinin cənnətməkan kəndlərindən biri də Şıxheybətdi . Vaxtilə ətrafı keçilməz meşəlik olan bu oba dağların başında bərqərar olubdu. Kirənin Xatıncanı ilə üzbəüz dağ başına qartal kimi qonan Şıxheybət, ehtimallara görə, Bakıdakı Şıxlar kəndi, Bibiheybətlə bilavasitə bağlıdı.Həzrəti peyğəmbərimizin nəslinin Ərəbistanda təqib olunduğu dönəmlərdə Məsumə xanımın indiki Azərbaycan ərazisində əvvəlcə məskən salıb yaşadığı məkan həmin bizim bu Şıxheybət olubdu."Şıx" - şeyx sözünün yerli ləhcəyə uyğunlaşmış formasıdır və "heybət" ərəb mənşəli söz olub əzmli, hünərli, qorxmaz anlamını verir və eyni zamanda həm də şəxs adı kimi Heybətdir.***

# Şeyx Heybətin kəndi və Pir palıd

O araqarışan, çətin vaxtlarda, güman ki, Məsumə xanım Şeyx Heybətlə bərabər bir müddət buralarda yaşayıb və vəziyyət nisbətən düzələndən sonra qədim Bakı ətrafında şiəliyin daha da inkişaf etdirilərək yayılması üçün münbit şərait olan şəhərə yaxın yerdə məskunlaşmışdı...

Elatımızın inancına görə bu yerlərə peyğəmbər ətəyi dəyibdi. Bu torpaqların bar-bəhərini yığıb-yığışdırılmaqla qurtarmaq olmur. Şıxheybətin qılçıqsız buğdası, Şıxheybət soğanı (Şıxverdi soğanı) həmişə adla söylənibdi. Bizim bu yerlərə qılçıqsız buğdanın ("bezos") yayılması Şıxheybətdən başlayıb. Vaxtilə sürgün həyatı yaşamış Qulu kişi çarığının içində bir qılçıqsız buğda sünbülü gətirib onu bir zəmiyə çevirmişdi və bərəkətli torpağımızın şəhdi əl-əl axtarılan zərdə bezos buğdası yetirmiş, sonra toxum ətraf elatlara da yayılmışdı.

Şıxheybətin adamları inanclı, imanlı zatlardı. Dağ bölgəmizin adamlarına nisbətən daha çox qarayanız və qarabuğdayıdılar: ---- Üstündən 1200-1300 il keçməsinə baxmayaraq Ərəbistandan və müqəddəs torpaqlardan gələn babalarının rəngini--- qanını yaşadırlar. Ona görə də deyirlər ki, qan heç zaman itmir, dəyişmir.

Haqq Peyğəmbərimizin səcərəsinə daxil olanların bir müddət yaşadığı bu sayalı yerin həndəvərində insanlarımızın dünya binnət olunandan tapındığı bir müqəddəs məkan da var. Şıxheybət, Qoşa və digər dağ kəndləri insanlarımızın böyük iman gətirdiyi bu Pir palıd çox sınaqlı bir yerdir. Ateizmin tüğyan etdiyi bir dönəmdəötən əsrin ortalarında, konkret olaraq 1936-cı ildə şeytanın yoldan azdırdığı bir kəs boynuna götürür ki, adamlarımızın öz ilkin inancları ilə tapındığı o abidəni mən Yer üzündən silərəm.

Söyləməyə görə diametri 2 metrdən yuxarı olan o Pir palıd böyüklükdə ətraf meşələrdə ağac olmamışdır. Nəhəng çətiri altında az qala bir oba mətərislənib sürülər daldanan ağac qutsal bir məkan kimi tanınırdı. Yaxından- uzaqdan adamlar gəlib dilək diləyər, arzusu yerinə yetəndən sonra isə şal-xələtlə qayıdıb Pir palıdı ziyarət edərdilər...

Adamları öz inanclarından döndərib siyasi quruluşun qullarına çevirmək istəyən dinsiz və allahsız sovet cəmiyyətinin ideoloqlarının tovlayıb yoldan çıxartdığı həmin o dərin getmiş, günlərin bir günü Pir palıda od vurur. Uzun müddət öz içindən korun-korun tüstülənən ağac yanıb qurtarmır ki qurtarmır. Öz bəd əməlini yerinə yetirib ağalarına raport vermək istəyən o kəs bir gün gəlir ki, ocağı qarışdırıb palıdın yanmasını sürətləndirsin, Allahdan olan kimi Pir palıdın nəhəng bir budağı qırılıb onun başına düşərək onu cəhənnəmə vasil edir.

Pir palıddan salamat qalan təxminən bir metr hündürlüyü olan o kötüyə daha heç ateistlər də yaxın gedəsi olmur. Üstündən 80 ilə qədər bir müddət keçməsinə baxmayaraq adamlar günü bu gün də Pir palıdın nişanəsi kimi həmin o kötüyü qoruyub saxlayaraq ona sidq ürəklə tapınırlar.

Qədirbilən eloğlulardan Bakıda yaşayan Abbasov Vagif Həsən oğlu həmin Pir palıdın nişanəsi üzərində məqbərə tikdirmiş və ora yenidən ziyarətgaha çevrilmişdir.

Şıxheybətlə Qoşa kəndləri arasındakı qədim meşəlikdə yerləşən Pir palıdın o nişanəsi bu gün də insanlara saya salmağındadır.

Yaddan çıxmamış. Tovuzun Ağacqala kəndində də belə Pir palıd var və sakinlər ona çox böyük sayğı göstərir.

***Bəhruzər Rüstəmov.***

# Açıq fikirli el şairi




Tovuzda Yunis Oruclunu çoxları tanıyır, bacarıqlı bir elektrik mühəndisi kimi. Ancaq onun gənc yaşlarından gözəl şeirlər yazdığını, səssiz-səmirsiz öz evində istedadlı el şairi kimi ömür sürdüyünü çoxları bilmirdi. Biz də on-on beş il əvvəl onun adını eşidəndə dərhal görüşməyi qərara aldıq. Ustad sənətkarımız Hüseyn Bozalqanlının kəndinə gedib Yunis kişinin qapısını döydük. Əslində onu bizə Bozalqanlının qeyrətli, xeyriyyəçi bir oğlu isnad vermişdi.

Çox vaxt aparsa da Yuisin qalın-qalın əlyazma dəftərlərini vərəqləməli olduq. Səliqə-səhmanı, bütün şeirlərini yazı makinasında yazdırıb qalın kitab formasında qoruyub saxlaması yaxşı təsir bağışladı. Ona görə də müxtəlif illərdə həmin əlyazmalardan onun şeirlərinin bir qismini yığıb nəşrə hazırladıq, bir-birinin ardınca kitablarını oxuculara təqdim etdik. El şairinin şeirlərinin əbədi ictimaiyyət tərəfindən maraqla qarşılandığını nəzərə alaraq, ömrün ahıl çağında Yunis Oruclunun bir kitabını da araya-ərsəyə gətirməyi qərara aldıq.

Müəllif oxuculara təqdim olunan yeni kitabı “Qocalıq” adlandırmış və kitaba ömrünün ahıl çağlarında yazdığı şeirləri daxil etmişdir. Ümumiyyətlə, Yunis Oruclunun yaradıcılığı çox sahəli olduğundan, mövzu zənginliyindən kitabda dərc olunmuş şeirlər də müxtəlif mövzularda, müxtəlif janrlarda və əhatəli seçilmişdir. Vətənə, xalqa, el-obaya sonsuz məhəbbət onun yazdığı şeirlər içərisində öndə dursa da, hikmət, nəsihət, tövsiyyə xarakterli şeirlər əsas yer tutur. Bu da təbiidir. Ahıl yaşında Yunis Oruclu, dosttanışa, gənc nəslə, bütün insanlara xeyirxah tövsiyyələr, ağıllı məsləhətlər vermək istəyir:

*Həmişə gözütox saxla özünü,*
*Gətirmə dilinə, yoxla sözünü,*
*Heç kəsin malına dikmə gözünü,*
*İlahi qismətin verəcək özü...*

O, dəyərli məsləhətlərini poeziya adamlarından, qələm sahiblərindən də əsirgəmir. Xüsusilə gənc yazarlara doğru yol göstərir, onları mənalı, məzmunlu yazmağa çağırır. El şairi bu tələblərə özü də həmişə əməl etməyə çalışır. Ona görə qələmə aldığı misralar dərin məna kəsb edir, oxuyanları düşündürür:

*Şeir sutək axsın gərək,*
*Gah şimşəktək çaxsın gərək,*
*Ondan məna çıxsın gərək,*
*Bilək nədir doğru-düzü...*

Kitabda janr müxtəlifliyi cəlb edən əsas cəhətdir. Yunis Oruclu klassik poeziya nümunələrindən, həmçinin müasir şeir üslublarından bacarıqla istifadə etmiş, maraqlı bir poeziya toplumu yaratmışdır. O, şeirimizin qoşma, gəraylı, divani, təcnis, müxəmməs, təmsil, sərbəst, qoşaqafiyə və s. Formalarında demək istədiyini deyə bilmiş, oxucuya fikrini çatdırmışdır. El şairi bir divanisində yazır:

***Ömrüm boyu haqq aradım, görün haralarda var,***
***Mənim kimi binəvalar hansı sıralarda var,***
***Deyirlər ki, min dərd olsa, min bir də əlac olur,***
***Yerin göstərən olarmı, bəlkə buralarda var?..***

Gəraylı və qoşma formalında da müxtəlif poeziyanın gücü ilə məqsədinə nail olur. Onun üçün ən əsas sözün məna çalarlarıdır. Nəzərində tutduğu mənanı o, şeirin bütün formalarında çatdıra bilir. Qoşmalarından birində yazır:

*Nəsihət görənlər ata-anadan,*
*Ağbirçək nənədən, ahıl babadan,*
*Heç vaxt uzaq olmaz eldən-obadan,*
*Böyüdüyü evdə, ocaqda gəzər...*

Bir el şairi kimi Yunis Oruclu Azərbaycanımızın düçar olduğu bəlalara, baş verən ictimai-siyasi hadisələrə də biganə deyil. Onun şeirlərində 20 Yanvar faciəsi, torpaqlarımızın bütövlüyü uğrunda erməni silahlı quldurları ilə döyüşlərdə canlarından keçən şəhidlərimizin qəhrəmanlıqları, bütün dünya ictimaiyyətinin lənətlədiyi Xocalı qətliyamı, namərd erməni qonşularımızın torpaq iddiası ilə ölkəmizin sərhəd bölgələrində törətdikləri qırğınlar geniş əksini tapmışdır:

***Bəlalar çəksə də bu xalqın başı,***
***Haqq səsinə qulaq asan çox azdı,***
***Deyirsən-zəhərdir, yemə o aşı,***
***O müdhiş zirvədən qaçan çox azdı...***

***Firdovsi Heydərli,***
***Yazıçı-jurnalist***

*Telman Axıncı*

**Mənə innən sonra lazımsan, bala!**

Cavanlığı qətrə-qətrə itirdim.
Baharın yerinə payız gətirdim.
Saç ağardı, baxdıqca köks ötürdüm.
Zaman öz atını çapır dördnala,
Mənə innən sonra lazımsan, bala!

Elə bilmə əbədiyəm, ölmərəm,
Ömür nə vaxt sona yetər, bilmərəm.
Mən ki, bu dünyaya bir də gəlmərəm,
Yuvadan uçan quş qayıtmaz dala,
Mənə innən sonra lazımsan, bala!

Qarşımı qış kəsib, arxamı payız,
Başıma qar yağır, ürəyimə buz.
Səndən umacağım qayğıdı yalnız,
Ehtiyacım yoxdu paltara, pula,
Mənə innən sonra lazımsan, bala!

Qürub günəşiyəm dağdan aşıram,
Hər gün acizləşir, fağırlaşıram.
Sözümü yanılır, yolu çaşıram,
Dönmüşəm sərgərdan sahibsiz qula,
Mənə innən sonra lazımsan, bala!

Dağı dağ üstünə qoyardım bir vaxt,
İndi Axıncıdan üz döndərib baxt.
Nə qədər ömür var, əcəldən qabaq.
İstəməzdim gözüm əllərdə qala,
Mənə innən sonra lazımsan, bala!

**Yunis əmi**

***Yunis Oruclunun yenicə çapdan çıxmış “Qocalıq” kitabını oxudum. Bu, təəssüratlarımdır.***

O sığallı, şirin-şəkər sözləri,
De hardan alırsan, a Yunis əmi?
Duzlu kəlamınla, misralarınla
Ovsuna salırsan, a Yunis əmi.

Çəkirsən nazını hörmət-izzətin,
Yanırsan yolunda haq-ədalətin.
Dərdinə şəriksən xalqın, millətin
Qeydinə qalırsan, a Yunis əmi.

Hərdən çıxıb təbiətin seyrinə,
Çiçək ətri hopdurursan şeirinə.
Dirsəklənib bir qayanın böyrünə,
Xəyala dalırsan, a Yunis əmi.

Bəzən gileylisən çərxi-dövrandan,
Təzadlı həyatdan, sərxoş zamandan.
Xoşun gəlmir şeytanxislət adamdan,
Görcən pərt olursan, a Yunis əmi.

Yazdıqların beş kitaba sığmadı,
Şöhrət daşıb, var başından yağmadı.
Halallıq bir verdiş, düzlük doğmadı,
Belə qocalırsan, a Yunis əmi.

“İztirablı ötən ömür” necədi?
Bu “Elə bağlıyam” ürəyimcədi.
Baxışın mehriban, qəlbin incədi,
Kövrəlir, dolursan, a Yunis əmi.

Açıb mətahını töksən bazara,
Göstər ariflərə, sat xiridara.
“Ümid ol Allaha, bir də dostlara”,
Ucal, ucalırsan, a Yunis əmi.

“Səni axtarıram”, “Bu dünyaya bax”,
“Yaralı durna”nı aç varaq-varaq.
“Qocalıq” Telmana yandırdı çıraq,
Nur, şölə salırsan, a Yunis əmi.




# Gözlərimizin nurunu qoruyanlar

Ölkənin ən tanınmış tibb ocaqlarından biri sayılan Akademik Zərifə Əliyeva adına Milli Oftomologiya Mərkəzi təkcə öz maddi texniki bazası ilə deyil, həm də tanınmış həkimləri ilə tanınır. Dünyada bizim üçün ən qiymətli hədiyyə olan gözlərimizi etibar etdiyimiz mərkəzin həkimləri bölgələrdə yaşayan vətəndaşların rahatlığı üçün mütəmadi olaraq bölgələrə səfərlər edir, yerindəcə xəstələri müayinə və müalicə edirlər.

Onların Tovuza gəlişi isə artıq ənənə şəklini alıb. Onlar təkcə rayon mərkəzində yaşayanlara deyil, kənddə yaşayanlara da yerindəcə xidmət göstərirlər.

Mərkəzin növbəti dayanacağı Qovlar şəhər dəmir yol vağzalı olmuşdur. Səhiyyə qatarında 2 gün ərzində- 7-8 noyabr tarixlərdə həkimlər 200 nəfərdən çox göz xəstəliyindən əziyyət çəkən xəstəni müayinə etmiş, 8 nəfəri isə əməliyyat etmişlər.

Xəstələr onlar üçün yaradılmış bu əlverişli şəraitdən olduqca razı qalmışlar. Xəstələr söhbət zamanı bildirdilər ki, Bakı şəhərinə getmək həm vaxt, həm də vəsait itkisinə səbəb olur. Burada isə bütün prosedurlar pulsuz həyata keçirilir. Bu isə dövlətimizin öz vətəndaşlarına göstərdiyi qayğının təzahürüdür.

***Elməddin Əliyev***

## Allah rəhmət eləsin!

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov və İcra Hakimiyyəti başçısı aparatının kollektivi Araz Əsgərova, atası
**Şəmistan Əsgərovun**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

---

“Tovuz” qəzetinin kollektivi Əsgər və Araz Əsgərovlara əzizləri
**Şəmistan Əsgərovun**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

## Hörmətli oxucular!

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı olan

**“Tovuz”**

qəzetinə 2019-cu ilin birinci yarısı üçün abunə yazılışı davam edir. Qəzetin yarım illik abunə qiyməti 20 manatdır. Qəzetə “Kapitalbank”ın Tovuz filialında abunə yazılmaq olar.

**Qəzetdəki fotoların müəllifi İlham Qiyasoğludur.**

BAŞ REDAKTOR
Çingiz Qəribli

**Ünvanımız:**
*Tovuz şəhəri, Şəhriyar küçəsi, 3,*
*Telefon: 315-35-23*
*tovuz.1929@mail.ru*

*Redaksiyaya göndərilən əlyazmalar geri qaytarılmır. Dərc olunan məktublardakı faktlara və elanların məzmununa görə redaksiya məsuliyyət daşımır.*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və “Mətbuat firması” mətbəəsində çap olunmuşdur.*
*Sifariş.:1105 Tiraj: 1500.*